# İslam peyğəmbərinin həyatı və nübuvvət arqumenti



**Tərtib etdi:** **“Çolaq Addım” səhifəsi**

**İÇİNDƏKİLƏR**

**ÖN SÖZ**..............................................................................................................1

**Nəyə görə İslam peyğəmbəri?**.......................................................................2

**İslam peyğəmbərinin həyat tarixinin qorunması**.............................................3

**Peyğəmbər həyatının əsas qaynaqları**............................................................4

**Peyğəmbərin həyatı haqqında yazılan kitabların hicri üçüncü əsrdə yazılmağa başlanması şübhəsi**.....................................................7

**Rəvayətlərə hökm vermək**...............................................................................9

**1-ci qayda. Sadəcə sənədi olan hədislərin toplanması**...................................10

**2-ci qayda. Toplanmış sənədlərin səhihliyinin kritikası**.................................11

**3-cü qayda. Ravilərin kritikası**.........................................................................13

**4-cü qayda. Ravilərin mərtəbələri**.....................................................................14

**5-ci qayda. Yalandan rəvayət uyduranın rədd edilməsi**...................................15

**6-cı qayda. Rəvayətlərin mətninin kritikası**......................................................15

**7-ci qayda. Möcüzələrdən xəbər verən rəvayətlərin yoxlanılması**.............16

**8-ci qayda. "Mənim adımdan qəsdən yalan danışan..."**.......................................16

**Yekun söz**...........................................................................................................16

## ÖN SÖZ

Səhifəmizdə Allahın varlığı, monoteizmin doğruluğu haqqında və inancsızların şübhələrinə cavab olaraq bir çox yazımız mövcuddur. Bu yazımızda İslam dininin doğruluğuna dair arqumetlər silsiləsinin ilk arqumentini - Peyğəmbər həyatının qorunduğu arqumentini oxucularımıza təqdim edirik.

Lakin bu yazını qələmə almağımızda yeganə səbəb bu deyil. Yaxında Cristopher Hitchensin "God is not Great" kitabının Azərbaycan dilinə tərcümə olunduğu xəbərini aldıq. Yazımız eyni zamanda Hitchensin Peyğəmbərin həyatı haqda qeyd etdiyi açıq aydın təhriflərə cavab vermək məqsədini də daşıyır.

## Nəyə görə İslam peyğəmbəri?

İslam peyğəmbəri Muhammədin həqiqi bir peyğəmbər olduğuna kifayət qədər arqument mövcuddur. Bu yazı silsiləmizdə təqdim etmək istədiyimiz Peyğəmbərin həyatının, dedikləri sözlərin və etdikləri əməllərin qorunub saxlanmasının onun peyğəmbərliyinə dəlalət etməsidir. Diqqət yetirin ki, arqumentimiz onun etdiyi və ya dediyi hər hansı bir müəyyən söz və ya əməldə deyil, ümumən onun həyatı haqqındakı məlumatların qorunub saxlanılmasındadır.

Başlamazdan öncə mühüm bir məsələyə toxunaq. Səhifəmizdə ateizmin, deizmin və politeizmin doğru olmayacağı haqqında kifayət qədər materiallar paylaşmışıq. Bu yazımızı o paylaşımlar işığında dəyərləndirmək lazımdır. Çünki biz, yaratdıqlarına qayğı göstərən bir Yaradıcının var olduğunu isbat edə biliriksə o zaman mütləq olaraq bu Yaradıcının yaratdıqlarına bir mesaj, risalə göndərməsini də gözləməliyik. Bu peyğəmbərlik mesajını mövcud olan monoteistik dinlərdə araşdırmağımız lazımdır.

Nəyə görə İslam peyğəmbəri?

Bəli, belə bir sual ilə qarşılaşa bilərik. Bu sualın cavabı əslində çox sadədir: digər peyğəmbərlərin həyatlarını araşdırmağımız mümkün deyildir. Misal üçün, biz İncillərin tamamilə tarixi gerçəkləri əks etdirdiyini qəbul etsək belə İsa peyğəmbər, onun həyatı və sözləri haqqında çox az məlumat alacağıq. Yahudilərin peyğəmbəri Musanın da həyatı həmçinin çox qaranlıq qalır. İslam peyğəmbərinin həyatı isə əksinə bizə çox dəqiq şəkildə gəlib çatmışdır. İrəlidə bunu isbat etməyə çalışacağıq. Ona görə də onun həyatı ilə başlamaqdan başqa çarəmiz yoxdur.

## İslam peyğəmbərinin həyat tarixinin qorunması

Müsəlmanlar İslam peyğəmbərinin həyat tarixinin qorunmasını onun həqiqi peyğəmbər olmasına dəlil hesab edirlər. Çünki peyğəmbər olduğunu iddia edən şəxsin həyatını onun haqda hökm verməyimiz - doğru deyib demədiyini öyrənməyimiz üçün başlıca şərtdir. Qarşı tərəf isə onun həyatının sonrakı nəsillər tərəfindən uydurulduğunu iddia edir. Çünki özləri də çox gözəl başa düşürlər ki, Peyğəmbərin həyat hekayəsinin qorunduğunu qəbul etdikləri halda onun peyğəmbərliyini də zəruri olaraq qəbul etməlidirlər. Oriyentalistlərdən bəziləri o həddə çatıblar ki, Muhamməd adlı şəxsin ümumiyyətlə mövcud olduğunu inkar ediblər. Almaniyalı oriyentalist Karl-Heinz Ohlig buna ən bariz nümunədir.

Biz burada peyğəmbərin həyat hekayəsinə daxil ola biləcək və ya daxil olan müəyyən hadisədən danışmırıq. Bəli, onun həyatı haqqında sonrakı dövrlərdə müəyyən uydurma və zəif hədislər mövcud ola bilər. Biz ümumən onun həyat hekayəsinin elmi əsaslar üzərində qorunduğunu iddia edirik. Bir tarixi şəxsiyyət haqqında müəyyən yalanın deyilməsi onun mövcud olduğunu inkar etməz. Əksinə, islam alimlərinin çox dəqiq elmi əsaslar üzərə doğru xəbəri yalan xəbərdən ayırmaqları bizə bu alimlərin tarixi hadisələrə necə qayğı ilə yanaşdıqlarını göstərir. Hicri birinci əsrdə yaşamış alim Muhamməd ibn Sirin artıq bizə hədis rəvayət edənlərin kim olduqları, nə ilə məşğul olduğunu xəbər vermişdir. Oriyentalizmin ərsəyə gəlmədiyi bir dövrdə müsəlman alimlər artıq rəvayətlərin kritikası ilə məşğul idilər. Dediyimiz kimi İslam peyğəmbəri peyğəmbərlik iddia edənlər arasında həyatını dəqiqliklə izləyə biləcəyimiz yeganə şəxsiyyətdir.

Bunu deyənlərdən biri də ingilis araşdırmacısı George Albert Wells`dir. Digər oriyentalist və yepiskop Benjamin Smith özünün *"Mohammad and Mohammedanism"* adlı kitabında deyir: **"İsa Məsih haqda bildiklərimiz onun həyatının sadəcə çox az hissəsini təşkil edir... Həyatının bir çox şeyindən isə ümumiyyətlə xəbərsizik... İslama gəldikdə isə hər şey açıq aşkardır. Onun səhih tarixi mövcuddur. Onlar (müsəlmanlar) Muhammədin həyatını Martin Luther`in və ya John Milton`un həyatını bildikləri kimi bilirlər. Onun haqqında yazılan kitablarda nə uydurma hekayələr nə də mümkünsüzlüklər yer alır... Heç kəs nə özünü nə də başqasını aldatmasın. (Muhammədin həyatı) günəş kimi açıq aydındır"**. Hətta dini təəssübü ilə məşhur olan 18-ci əsr oriyentalisti Ernest Renan *"Mahomet et les origines de l'islamisme*" kitabında deyir: **"Digər dinlərdən fərqli olaraq İslam dini tarixin qaranlıqlarında deyil, tarixi izləyə biləcəyimiz bir vaxt ərəsəyə gəlib. Bu dini təsis edənin həyatı bizə on altıncı əsrdə yaşamış istənilən reformatorun həyatı qədər məlumdur".**

## Peyğəmbər həyatının əsas qaynaqları

Təbii ki, ən əsas qaynaq Qurandır. Quran bir çox ayədə İslam dəvətinin ilk illəri, müsəlmanların zəif olub sıxışdırıldıqları, müsəlmanların müşriklər və yəhudilərlə olan əlaqələri, çəkdikləri əziyyətlər, onların dini, siyasi və iqtisadi durumu haqda bizə xəbər verir. Burada bir kəsin Qurana inanıb inanmaması əhəmiyyət daşımır, hər iki halda Quranın bizə Peyğəmbər həyatından bəzi faktları xəbər verdiyi danılmazdır. Buna görə də oriyentalistlərin böyük əksəriyyəti Quranın xəbərlərini təsdiq edirlər. Hətta bütün hədis kitablarının sonradan uydurulduğunu iddia edən

belçikalı oriyentalist Henri Lammens *"l'islam croyances et institutions"* adlı kitabında Quranın etibara alına biləcək bir qaynaq olduğunu qəbul etmişdir.

Quranla bərabər rəvayətləri isnadı ilə zikr olunan təfsir kitabları da əsas qaynaqlardan hesab olunur. Bu kitablar Quranın müəyyən ayəsinin hansı müəyyən hadisəyə dəlalət etdiyini özündə ehtiva edir. Bundan sonra bunu isbatlamaq üçün müəyyən bir rəvayət zikr edir. Bu xəbərin doğru olub olmamasını yoxlamaq üçün bu xəbəri rəvayət edən şəxslərin adları da qeyd olunur. Misal üçün kitab müəllifi deyir ki, bu rəvayəti mənə A adlı şəxs B adlı şəxsdən rəvayət edib. B adlı şəxs isə öz növbəsində bunu C adlı şəxsdən eşidib, C adlı şəxs isə bu hadisənin şahidi olub. Beləliklə xəbər bizə isnadı ilə rəvayət olunur. İrəlidə bunun haqda daha ətraflı söhbət açacağıq. Bu cür kitablardan İmam ibn Vəhbin, Yəhyə ibn Sələmin, İmam Abdur-Razzaqın, Abd ibn Humeydin, İmam Nəsəinin ilkin əsrlərdə yazdığı təfsir kitablarını[1] zikr etmək olar.

Quranla bərabər Peyğəmbər həyatının əsas qaynaqları hədis, sirət (Peyğəmbər həyatı) və şamail (Peyğəmbərin sifətləri haqda yazılan) kitabları sayılır. Erkən dövrlərdən İslam alimləri Peyğəmbərin həyatını qorumaqdan ötrü xüsusi səy göstəriblər. Buna şahidlik edənlərdən biri yəhudi oriyentalist Bernard Lewis olub. Lewis ümumən İslama qarşı neqativ baxışları ilə seçilsə də *"İslam in History"* adlı əsərində deyir: **"İlk dövrlərdən İslam alimləri Peyğəmbər adından rəvayət olunan uydurma hədislərin təhlükəsini anlamışdılar. Buna görə də**

[1] İmam ibn Vəhbin (hicri 197 vəfat edib) "Təfsiri", Yəhyə ibn Sələmin (h. 200) "Təfsiri", İmam Abdur-Razzaqın (h. 211) "Təfsiri", Abd ibn Humeydin (h. 249) "Təfsiri", İmam Nəsəinin (h. 307) "Təfsiri".

**rəvayətlərə kritik yanaşmaq üçün çox geniş bir elm ərsəyə gətirmişlər... Hədis elmində rəvayətlərin isnadlarına (rəvayət edən şəxslərə) çox dəqiq kritika ilə yanaşılması, rəvayətlər arasında ixtilaflara dəqiq hökm verilməsi və rəvayətlərin qorunması orta əsr ərəb tarixinə elə bir güc qatır ki, biz bunun mislini nə qədim dövrlərdə nə də orta əsr Avropa tarixində tapa bilirik. İslam tarixi ilə müqayisədə latın dilində yazılmış xristianlıq tarixi çox zəif görsənir. Hətta latın tarixindən daha çox inkişaf etmiş yunan dilində yazılmış xristianlıq tarixi də İslam tarixi ilə müqayisə oluna bilməz: nə həcmində nə də tarixi təhlillərin dəqiqliyində".** Livanlı xristian tarixçi Əsəd Rüstəm isə hədis elmi haqqında daha da insaflı yazır: **"Nizamlı şəkildə tarixi hadisələrin isnadlarının kritikası ilə ilk məşğul olanlar islam alimləri olublar. Onlar Quranı doğru anlamaq və ədaləti yaymaq üçün Peyğəmbərlərinin sözlərinə və fellərinə qayğı göstərmək məcburiyətində olublar. Beləliklə, onlar rəvayətləri toplamaq və onları detallı şəkildə öyrənməklə tarix elminə elə qaydalar bəxş ediblər ki, bu qaydalar bu günə qədər aktualdır"**[2]

Sadəcə Peyğəmbərin sirəti (həyatı) haqqında Suleyman ət-Teyminin, İbn İshaqın, ibn Sadın[3], Peyğəmbərin xislətləri haqqında ət-Tirmizinin, Əbi Şeyxin, Vahb ibn Kəsir əl-Quraşinin, ibn Mədininin, əbu Dəvud əs-Sicistaninin kitablarını[4] qeyd etmək olar. Yazını uzatmamaq xatirinə bu

[2] Əsəd Rüstəm, Mustələh ət-tarix.
[3] Suleyman ət-Teymi (h.143) "Səhih Sirət", İbn İshaq (h. 151) "Sirət", ibn Sad (h. 230) "ət-Təbəqat əl-Kubra".

qədəri ilə kifayətlənirik. İslam tarixinə azacıq nəzər salan dərhal anlayacaq ki, sirət haqqında və ümumən hədis elmi haqqında yazılmış kitabların sayı o qədərdir ki, tarix boyu heç bir tarixi şəxsiyyət haqqında bu qədər kitab yazılmamışdır. Bu, İslam Peyğəmbərinin necə bir şəxsiyyət olduğunu isbat etməyə kifayət deyilmi?

## Peyğəmbərin həyatı haqqında yazılan kitabların hicri üçüncü əsrdə yazılmağa başlanması şübhəsi

Oriyentalistlərin İslam Peyğəmbərinin həyatı haqqında ortaya atdıqları ən bariz şübhə onun həyatı haqqında yazılan kitabların hicri üçüncü əsrdə yazılmağa başlanmasıdır. Bizim sizə təqdim etdiyimiz çox qısa bir siyahıdakı kitabların əksəriyyəti də bu cürdür. Lakin Peyğəmbərin həyatı haqqında iddia edilən bu şübhə üç yöndən batildir:

1. Bilmək lazımdır ki, üçüncü əsrdə qələmə alınmağa başlayan kitabların xüsusi bir məziyyəti vardır. Bu kitabı yazan alimlər onları xüsusi mövzular üzrə cəm edirdilər. Misal üçün bəziləri sadəcə səhih hədisləri, bəziləri Peyğəmbərin həyatını, bəziləri fiqh elmi ilə əlaqəli hədisləri toplayırdılar. Lakin yazılı sünnətin mövcudluğuna gəldikdə isə hicri birinci əsrdə belə bir çox hədis aliminin özünə məxsus hədis dəftərləri mövcud olub. Bu alimlər burada öz şeyxlərindən eşitdikləri hədisləri isnadları ilə bərabər toplayıblar. Lakin onları xüsusi mövzulara bölməyiblər. Bu mövzu haqda azərbaycan dilində xüsusi bir kitab yazıldığından dolayı maraqlananlar ona müraciət edə bilərlər. Lakin şəkk yoxdur ki, hədis elminin müntəzəm

---

[4] ət-Tirmizi (h. 279) "Şamail", Əbi Şeyx (h. 269) "Peyğəmbərin əxlaqı və ədəbi", Vahb ibn Kəsir əl-Quraşi (h. 200) "Sıfətun-Nəbi", ibn Mədini (h. 234) "Sulhun-Nəbi", əbu Dəvud əs-Sicistani (h. 275) "Məişətun-Nəbi".

olaraq kitab şəklində qələmə alınması hicri üçüncü əsrdə özünün ən yüksək dərəcəsinə çatmışdır. Biz bunda xüsusi bir ilahi hikmətin olduğuna inanırıq və gələcək sətirlərdə bunu izah etməyə çalışacağıq.

2. Bu şübhənin ən böyük xətası isə qərb oxucusunda elə bir təsəvvür yaratmasıdır ki, üçüncü əsrdə bir qrup insan heç bir elmi əsas olmadan öz xəyallarından və ya mövcud olan şayələri toplayaraq hədis və ya peyğəmbər həyatı yazıblar. Bu isə çox böyük bir xətadır. İslam tarixinin və hədis elminin ən böyük məziyyəti odur ki, istər hədis olsun istər də İslam Peyğəmbərinin həyatı olsun - bütün bunlar isnad ilə rəvayət olunur. İsnad nədir? İsnad müəyyən bir hədisi rəvayət edən şəxslər zənciridir. Müəllif bir rəvayətə kitabında yer verirsə o zaman mütləq olaraq bunu kimdən eşitdiyi qeyd edir. Sonra o şəxsin bu rəvayəti kimdən eşitdiyini qeyd edir. Və beləcə hədisin isnadı əmələ gəlir və peyğəmbərə qədər uzanır. Bir isnadda mövcud olan ravilərin sayı fərqli ola bilir. Tarixçilər bu isnadlara baxaraq, ordakı ravilərin halını öyrənərək müəyyən bir tarixi hadisə haqqında onun doğru olub olmadığına hökm verirlər. Bunun haqda irəlidə söhbət açacağıq.

İsnad ilə hədis rəvayət etmək İslam tarixinin və hədis elminin unikallıqlarından biridir. Nə müsəlmanlardan sonra nə də müsəlmanlardan əvvəl digər millətlərin tarix elmlərində belə bir şey mövcud deyildir. Təsəvvür edin ki, bununla "hədis kitabları sonrakı əsrlərdə uydurulmuş isnadlarla yazılmışdır" deyənlər vardır. Deməli təsəvvür edin ki, Malik ibn Ənəs adlı islam alimi hicri ikinci əsrdə hədis kitabı yazır və ora hədis əlavə edir. Hədisin isnadı belədir: Malik Nafidən eşidib, Nafi Abdullah ibn Ömərdən eşidib, o isə öz növbəsində Peyğəmbərdən eşidib. İndi bu etirazı edənə sual vermək lazımdır: sənin

üçün bu hədisi Malik tərəfindən yazılması ilə Abdullah ibn Ömər tərəfindən yazılması arasında nə fərq var? Yəni, əgər kitab birinci əsrdə ibn Ömər tərəfindən yazılsa idi o zaman sən avtomatik olaraq bunun doğruluğunu təstiqləyəcəkdin? Amma Malik bunu qələmə tökürsə və kimdən eşitdiyini də qeyd edirsə o zaman ona inana bilmərik? Yəni bir şəxsin doğru danışmağının əlaməti sadəcə nə zaman yaşadığındadır? Birinci əsrdə yaşadığı təqdirdə doğru danışacaq, üçüncü əsrdə yaşadığında isə avtomatik olaraq yalançı və uydurmaçı olur? Qərb tarix elmi rəvayətlərə beləmi qiymət verir?

3. Hədis və islam tarixi elminə zəif rəvayətlərin daxil olması məsələsi isə oriyentalistlərin kəşfi deyildir. Hədis elmi yazıya tökülməmişdən öncə belə İslam alimləri zəif rəvayətlərin mövcud olduğundan xəbərdar idilər və onların kritikası ilə məşğul olurdular. Zəif hədislərin mövcud olması çox normal bir haldır, istənilən tarixi şəxsiyyət haqda müxtəlif rəvayətlər vardır. Bu zəif hədislərin mövcudluğu hədis elminə heç bir zərər vermir, əksinə onun gücünə güc qatır. İrəlidə buna işarə edəcəyik.

## Rəvayətlərə hökm vermək.

Rəvayətlərə hökm vermək - İslam tarix elminin unikallığıdır.

Hədis kitabları - istər İslam Peyğəmbərinin həyatı haqqında olsun istərsə də onun sözləri və əməlləri haqqında - isnadları ilə hifz olunan rəvayətlərdən ibarətdir. Lakin bəziləri etiraz edirlər və deyirlər ki, bu hədislər həqiqətə uyğun deyildir. Onların sonrakı dövrlərdə yaşayan insanlar tərəfindən uydurulması mümkündür. Bu etiraza bir neçə yöndən cavab verəcəyik:

**1-ci qayda. Sadəcə sənədi olan hədislərin toplanması.**

Sadəcə sənədi olan hədislərin toplanması özü-özlüyündə çox böyük işdir. Tarixi hadisələri bu cür ələ almaq ümumiyyətlə nə xristianlıqda nə yəhudilikdə nə də heç bir başqa tarixi qaynaqlarda mövcud olmayıb. Rəvayətləri sənədi ilə rəvayət etmək və bu sənədlərin doğru olub olmadığını yoxlamaq müsəlman tarixçilərinə xas bir şeydir. Bu əməli necə mənasız və uydurma adlandırmaq olar?

Müsəlman alimləri oriyentalizm ərsəyə gəlmədən öncə belə zəif və uydurma rəvayətlərin mövcud olduğunu bilir və bəyan edirdilər. Zəif hədislərin mövcudluğunun nə əhəmiyyəti var? Cavab olaraq deyirik:
a) Zəif və uydurma rəvayətlər bizə o rəvayətləri nəql edən ravilərin halını göstərir. Öncə də qeyd etdiyimiz kimi bəzi ravilər yalandan hədis uydurmaqla bərabər bu hədislərə çox səhih isnad da uydurmağa cəhd göstəriblər. Lakin alimlər bu ravinin bütün hədislərini ələ alır və onun sadəcə bir yerdə yalan dediyini anlayırlarsa o zaman bu ravinin rəvayət etdiyi bütün hədisləri inkar edirlər. Hətta rəvayət etdiyi hədisin mətni "Allahdan başqa ilah yoxdur" sözü kimi İslamın ən bariz simvolu olsa belə alimlərimiz bu hədisin isnadını rədd edirlər. Beləliklə, zəif və uydurma hədislərin birinci faydası ravilərin halını araşdırmağa imkan verməleridir.

b) Zəif və uydurma hədislər bizə bu elmin sonradan uydurulmadığını isbat edir. Əgər bir qrup insan İslam dinini dəstəkləmək üçün hədis uydurası olacaqdırsa sadəcə səhih hədislər uydurar və müsəlmanlara bunlara inanmağa sövq edərdi. On minlərcə zəif və ya yalançı ravini uydurmağa nə ehtiyac var idi? Sonra da bu ravilərin rəvayət etdikləri hədisləri uydurmağa nə qədər güc və nə qədər enerji tələb olunduğunu təsəvvür edirsiz? Bunu kim və nə zaman uydurub? Biz belə bir şeyin mümkün

olduğuna inanmırıq. Belə bir şey edən bir qrup insan mütləq olaraq bəzi yerlərdə elə xəta buraxacaqdır ki, onların yalanları açıq-aydın şəkildə üzə çıxacaqdır. Üstəlik unutmayın ki, bu insanlar real tarixi şəxsiyyətlər idi. Hədis alimləri onlar haqqında "bu doğru deyəndir, bu yalançıdır, bu unutqandır" deyəndə sadəcə xəyallarından filankəs ibn filankəs haqqında danışmırdılar. Öz dövrlərində və ya özlərindən öncə yaşamış real şəxsiyyətlər haqqında danışırdılar. Necə olur ki, onlar istədiklərinə istədikləri hökmü verir, lakin digər müsəlmanlar bu yalanı başa düşmürlər?

**2-ci qayda. Toplanmış sənədlərin səhihliyinin kritikası.**

İslam alimləri rəvayətlərin isnadlarını topladıqdan sonra bu isnadların səhih olub olmaması haqqında hökm vermək üçün müəyyən şərtlər qoyublar. Bu şərtləri qeyd edək:

1) Sənədinin kəsilməməsi (ittisalus sənəd). Bu nə deməkdir? Tutaq ki, bir hədis kitabında İslam Peyğəmbərinin müəyyən bir sözü qeyd olunur. Bu sözü kitabın müəllifi A şəxsindən, A şəxs B-dən, o isə C dən eşidib. C şəxs isə bunu Peyğəmbərdən eşidib. Buna biz rəvayətin isnadı deyirik. Bu isnadın kəsilməməsi lazımdır. Yəni, müəllifin həqiqətən də A şəxsini gördüyünü və ya görmək imkanı olduğunu bilməliyik. Eyni şey A ilə B, B ilə C və C ilə Peyğəmbər arasında olmalıdır. Məsələn A şəxsi müəllif doğulmadan öncə vəfat etmişdir. O zaman biz qəti olaraq bilirik ki, müəllif bunu A şəxsindən eşidə bilməz. Belə bir rəvayət təbii olaraq səhih qəbul olunmur. Və ya A şəxsi B şəxsi ilə eyni zamanda yaşamışdır, lakin biz bilirik ki, A şəxsi heç bir zaman öz şəhərini tərk etməmişdir. Eyni zamanda

B şəxsinin də A-nın yaşadığı şəhəri ziyarət etmədiyini bilirik. Bu zaman da rəvayətin səhih olması rədd olunur.

2) Ravilərin ədaləti. Bunun mənası isnadda mövcud olan bütün ravilərin İslamın vacib gördüyü əməlləri yerinə yetirməsi, böyük günahlardan və ya kiçik günahlarda israr etməkdən çəkinməsidir. Əgər ravinin günahkar olduğu bizə aydın olarsa o zaman bu ravinin mövcud olduğu isnad artıq etibarlı hesab olunmur. Ona görə də hədis alimləri isnadları toplamaq ilə bərabər bu isnadlarda mövcud olan şəxslər haqqında məlumatları toplayıb və buna əsasən ravilərə hökm veriblər. İçində on minlərcə ravinin həyatı qeyd olunan bu kitablara "ricəl" kitabları deyilir. Bəzən isə alimlər daha da irəli gedərək mürvət sifətinə zidd olan əməllər edən ravilərin sözlərini də qəbul etmirlər. Misal üçün keçmişdə islam cəmiyyətində kişilərin küçədə başı açıq olması mürvətə zidd hesab olunurdu. Diqqət yetirin bunu etmək nə böyük, nə də kiçik günah deyildir, lakin isnanların xoş görmədikləri əməl olduğu üçün ravinin bu əməli etməsi onun rəvayətlərinin rədd olunması ilə nəticələnə bilərdi. İslam alimlərinin rəvayətlərə qarşı nə qədər həssas olduğuna diqqət yetirin!

Bu fəxr olunası şərt islam qanunvericiliyində də mövcuddur. Hər birimiz istər türk, istərsə də amerikan filmlərində məhkəmə səhnələrini görmüşük. Bir şəxs məhkəmə qarşısına çıxır, əlini müqəddəs kitaba basır və əsas protaqonistə qarşı ifadə verir. Beləcə də əsas qəhramanın aleyhinə hökm verilir. Bəli, qərb ədalət sistemi bunun üzərində qurulmuşdur. İstənilən şəxs - ən facir və mənəviyyatsız birisi olsa belə - çıxıb sənə qarşı şahidlik edib həyatını bərbad edə bilər. İslam qanunvericiliyində isə hədis elmində olduğu kimi insanların örfünə müxalif olan birisinin sözü qəbul

olunmur, günah işləyən birisi haqqında isə söhbət belə etmirik. İkisi arasında hansının daha ədalətli olduğuna özünüz qərar verin.

3) Ravinin hifz sahibi olması. Ya bu ravinin güclü hafizəsi olduğunu ya da sadəcə yazdıqlarını rəvayət etdiyini bilməyimiz lazımdır. Saleh bir şəxs olsa belə hafizəsində problem olan ravinin rəvayətləri etibarlı hesab olunmur.

4) Rəvayətin mətni şaz olmasın. Bunun mənası odur ki, bəzən eyni rəvayəti iki müxtəlif ravi iki müxtəlif rəvayət kanallarından rəvayət edir. Rəvayətin mətni bir birinə çox yaxındır, lakin aralarında bəzi fərqliliklər var. Bu zaman biz iki rəvayət arasında cəm edə bilmədiyimiz təqdirdə ravilərin halına baxırıq. Görürük ki, ikisi də saleh adam olub və hifzlərində problem yoxdur. Sadəcə ikisindən biri digərindən daha güclü hifzə malikdir. Bu zaman daha güclü hifzə malik olanın rəvayəti üstün hesab olunur.

5) Rəvayətin mətnində və ya isnadında gizli problemin olmaması.

Bu şərtlərdən sadəcə birinin olmaması rəvayəti etibarsız edir.

### 3-cü qayda. Ravilərin kritikası

Müsəlmanlar digər müsəlmanlara qarşı daim yaxşı zəndə olmaqla əmr olunublar. Belə demək mümkündürsə islam alimləri bundan istisnadır. Hədis elmi ehtiyat üzərə qurulub, buna bəzi misallar verək:

a) Halı məchul olan ravinin rəvayətləri səhih hesab olunmur. Yəni, əgər biz hədisin sənədində olan bir ravinin ədalət sahibi olub olmadığını bilmiriksə o zaman bu rəvayət səhih hesab olunmur.

b) Əgər biz bir ravinin müəyyən dövrdən sonra hafizəsinin zəiflədiyini

biliriksə, lakin bunun nə zaman baş verdiyini bilmiriksə, o zaman ehtiyat edərək o ravinin rəvayət etdiyi bütün rəvayətlər zəif hesab edirik.
c) Əgər ravilərin halını araşdıran alimlər bir ravinin halı haqda ixtilaf edirlərsə - bəziləri onun ədalətli olduğunu bəziləri isə ədalətli olmadığını deyirlərsə o zaman ümumi qayda olaraq bu ravinin hədisləri zəif hesab olunur.
d) Rəvayətin sənədində qopuqluq olarsa - yəni iki ravi arasında olan ravinin adı qeyd olunmazsa - o zaman bu hədis etibara alınmır.
e) Əgər bir ravi hədis ilə dolu bir kitabı digər bir ravidən nəql edərsə və içindəki hədislərdən sadəcə birində şəkk edərsə - o zaman xətadan qorunmaq üçün bütün hədislər etibardan düşürülər.

**4-cü qayda. Ravilərin mərtəbələri**

Hədis alimlərinin dəqiqliyi o həddə çatmışdır ki, bəzən eyni ravinin bəzi hədislərini qəbul edir digərlərini isə qəbul etmirlər. Misal üçün, bir ravinin müəyyən şəxsdən rəvayət etdiklərini qəbul edirlər, digər şəxsdən rəvayət etdiklərini isə qəbul etmirlər və ya müəyyən bir yaş həddinə qədər rəvayət etdiklərini qəbul edirlər ondan sonra rəvayət etdiklərini isə qəbul etmirlər və ya tək rəvayət etdiyini qəbul etmir başqa ravilərlə bərabər rəvayət etdiklərini isə qəbul edirlər və ya yazdıqlarından rəvayət etdiyini qəbul edirlər hafizəsindən rəvayət etdiklərini isə qəbul etmirlər.

Buna görə də hədisi qəbul olunan və olunmayan ravilərin mərtəbələri eyni deyildir. Misal üçün rəvayəti qəbul olunmayan lakin halı ən yüngül olan ravi haqqında "onun haqqında danışılıb" deyə ifadə edirlər. Bundan daha aşağı olan raviyə "hədisləri inkar olunar" deyilir. Bundan sonra "hədisləri rədd olunan" ravilər, daha sonra "yalanda ittiham olunan" ravilər, ən

sonda isə "yalançı" və "insanların ən yalançısı" vəsfləri ilə vəsfləndirilənlər gəlir.

Hədisi qəbul olunanlar da həmçinin yuxarıdan aşağıya belə vəsfləndirilirlər: "insanların ən doğru danışanı", "doğru danışan", "onda problem yoxdur", "doğru danışandır", "hədisləri yazılar"

Bu bölgünün faydası odur ki, iki ravi bir birinə zidd hədislər rəvayət etdiklərində biz hansının daha çox etibar oluna biləcəyini bilirik. Düşünün, sadəcə yalandan hədis uydurmaq istəyənlərin bu təfsilatlara girməsinin mənası nədir?

**5-ci qayda. Yalandan rəvayət uyduranın rədd edilməsi.**

İstər islam dinini, istərsə də Peyğəmbəri ucaltmaq üçün yalandan rəvayət uyduranın bütün rəvayətləri alimlərin ittifaqı ilə rədd olunar. İslamı pisləmək üçün yalandan rəvayət uyduran ilə onu ucaltmaq üçün rəvayət edən arasında fərqin qoyulmaması alimlərin bu rəvayətləri qorumaq üçün necə ədalətli davrandıqlarına ən bariz dəlillərdəndir.

**6-cı qayda. Rəvayətlərin mətninin kritikası.**

Alimlər sadəcə rəvayət edənlərin halını deyil, rəvayətlərin mətnini də kritika ediblər. Misal üçün rəvayətin mətnində problemin olduğuna işarə edən bəzi nöqtələr bunlardır:

a) rəvayətin əqlə və ya qəti məlum olan tarixi hadisəyə tərs olması

b) Peyğəmbər həyatından qəti bilinənə müxalif olması

c) Rəvayət çox məşhur bir hadisə haqqında olması ilə bərabər onun sadəcə

bir-iki şəxs tərəfindən rəvayət olunması

d) Qurana açıq aşkar zidd olması

**7-ci qayda. Möcüzələrdən xəbər verən rəvayətlərin yoxlanılması.**

Peyğəmbərin möcüzələrindən xəbər verən rəvayətlər digər rəvayətlər kimi eyni dərəcədə yoxlanılır, onlar arasında da uydurma olanlar rədd olunur. Misal üçün məşhur alim ibnul Cövzinin uydurma hədislər haqqında yazdığı kitabda "Peyğəmbərin fəzilətləri" ünvanı altında bir fəsil vardır.

**8-ci qayda. "Mənim adımdan qəsdən yalan danışan..."**

Müsəlmanlar nəsilbənəsil bir hədisi rəvayət edirlər. Bu hədisdə peyğəmbər deyir: "Mənim adımdan qəsdən yalan danışan özünə Cəhənnəmdə yer hazırlasın". Sadəcə səhabələrdən bu hədisi yetmiş nəfərdən çox ravi rəvayət edib.

İslam alimlərinin qoyduğu şərtlər kifayət deyilmi? Bu şərtlərin üzərinə nə əlavə etmək olar?!

**Yekun söz.**

Maraqlıdır ki, oriyentalist Reinhart Dozy bəzi səhih hesab olunmuş hədislərin ləfzlərindəki ixtilafları hədislərin uydurulmamasına dəlil olaraq görüb. Çünki "dinlərinə yardım etmək üçün yalan danışanlar cədəl üçün qapı açmazdılar" (Essai sur l'Histoire de l'İslamisme). Misal üçün eyni hədisin bir rəvayətində imanın yetmiş digərində isə altmış şöbə olduğu qeyd edilir. Belə ixtilafların əsas səbəblərindən bəzi ravilərin rəvayət

etdiklərinin bəzi hissələrindən əmin olmamasıdır. Və adətən ravilər şəkk etdikləri ləfzi qeyd edirlər, beləliklə hədisin əsli sabit olur sadəcə bəzi ləfzlərində tərəddüd ola bilir. Bunlar da digər hədislər ilə aradan qaldırılır. Gördüyünüz kimi Dozy bu cür ixtilafları dəlil gətirir ki, hədis elmi uydurulmayıb. Rəvayət uyduran insanlar belə bir şey etməzdilər.

Burada yenə də xatırlatmaq istəyirik ki, qeyd etdiyimiz peyğəmbərlik arqumenti hansısa müəyyən hədisin səhihliyində və ya zəifliyində, yəni bu qaydaların müəyyən tətbiqində deyildir. Arqument peyğəmbərin həyatının qorunması üçün bu cür dəqiq elmi qaydaların mövcud olmasıdır. Çünki əql bizə işarə edir ki, əgər bir peyğəmbər özündən sonra peyğəmbər olmamaq surəti ilə bütün bəşəriyyətə elçi olaraq göndərilirsə o zaman bu insanın həyatı ən kamil sürətdə hifz olunmalı idi. İslam Peyğəmbərinin həyatı kimi heç bir tarixi şəxsiyyətin həyatı nə öyrənilməyib, nə də qorunmayıb. Təsəvvür edin ki, bəzi hədislərdə peyğəmbərin saqqalında olan ağ tüklərin sayı qeyd olunur. Əgər bir kimsənin həyatı bu cür qayğıya layiqdirsə şübhəsiz ki, buna ən layiq olan bir peyğəmbərin həyatıdır. Digər cəhətdən baxdığımızda isə, əgər biz bu elmi mənhəci göz ardına alaraq onun həyatının qorunmasına şübhə ilə yanaşırıqsa, o zaman əmin olun ki, heç bir tarixi şəxsiyyətin həyatı haqqındakı tarixi məlumatlara inanmamalıyıq.

Tasitin "Analları" Oktavian Avqustdan sonra, yəni təqribən miladi 18-ci ildən 68-ci ilə qədər hökmdarlıq edən Roma imperatorlarının həyatı haqqında bəhs edir. Tasit özü ehtimal olunana görə miladi 55-ci ildə anadan olub. Deməli kitabının ən azı böyük hissəsini rəvayətlərə əsasən yazır, özü bu hadisələrin şahidi olmur. Şahidi olmadığı hadisələri kimdən öyrəndiyini qeyd etməsə belə onun Analları bu dövrün öyrənilməsi üçün

əsas qaynaqlardan hesab olunur. Hədis elmi kriteriyalarına görə bu kitab səhih mənbə qəbul edilə bilməz (Tasitin özünün etibar oluna biləcək biri olub olmaması məsələsini də unutmayın). Müəllif hadisələrə yaxın dövrdə yaşayıb? "Anallarɪn" ən qədim əlyazısı miladi 9-cu əsrdə Almaniya ərazisində yazılan nüsxədir. Arada 8 əsr naməlum bir kitab isnadı vardır. Üstəlik bu nüsxənin yazarı haqqında da heç bir məlumat yoxdur. Bütün bunlar "Analları" tarixi qaynaq kimi ələ almağa manedirmir?

O zaman hədis elminə olan bu qərəz təəssübdən başqa bir şey deyildir. Xatırlayırsızsa, daha öncə biz qeyd etmişdik ki, hədislərin sonrakı dövrlərdə kitab halına salınmasında ilahi bir hikmət vardır. Oriyentalistlərin klassik etirazı odur ki, nəyə görə Peyğəmbərin həyatı və hədisləri öz dövründə qələmə alınmamış və kitab halına salınmamışdır. Bunun bir çox səbəbi vardır. Lakin sizi inandırmaq istəyirik ki, əgər kitablar o dövrdə yazılsa idi o zaman oriyentalistlər bu dəfə deyəcəkdirlər ki, Peyğəmbərin peyğəmbər olmasını isbat etmək üçün bir qrup səhabə Mədinədə toplanmış və yalandan hədis uydurmuşdur. O zaman səhabələrin böyük əksəriyyəti Mədinədə yaşamış və belə bir işə bərabər qatılmalarında mümkünsüz bir şey yoxdur deyiləcəkdi. Üstəlik kitablarda qeyd olunan hədislərin sənədlərində sadəcə bir ravi - müəyyən bir səhabə qeyd olunacaqdı. Bir ravidən ibarət sənədləri uydurmaqda isə heç bir çətinlik yoxdur. Lakin hədislər ikinci və üçüncü əsrdə toplananda artıq məsələ bu qədər bəsit olmur. Ravilərin sayı bir neçə yüz səhabə ilə bitmir. Ravilərin həyatları öyrənilən xüsusi "ricəl" kitablarında ravilərin sayı onminlərlədir, bəzi kitablarda otuz min insanın halı qeyd olunur. Bu ravilər və bu ravilər haqda yazan hədis alimləri sadəcə bir şəhərdə deyil, şərqdə Çindən başlayan qərbdə isə İspaniyada bitən nəhəng bir

imperiyanın ərazisində yaşayıblar. Bir hədis alimi Əndəlüsdə yaşayır və bir hədisi müəyən bir isnad ilə rəvayət edir, digər alim isə ömründə Mədinəni tərk etmir lakin tamamilə başqa isnad ilə eyni ləfzli hədis rəvayət edir. İndi bu cür hədislərin sayının minlərcə olduğunu düşünün və bu hədislərin bir qrup adam tərəfindən qəsdli şəkildə uydurulmasının mümkün olduğuna qərar verin. Bunları uyduranlar kimlər idi? Hansı dövrdə harada bir araya gəlmişlər? Az bir sayda adamın olduğunu nəzərə alsaq o zaman bu insanlar necə bu cür coğrafiyaya bu qədər uydurma hədis yaya bilmişlər? Və ya bütün hədis alimləri uydurma üzərində toplanıblar? Bu mümkün deyildir.

Birincisi, hətta əsas hədis kitablarını yazan bir çox alim heç bir zaman qarşılaşmayıb. Ya müxtəlif dövrlərdə, ya da müxtəlif yerlərdə yaşayıblar. İkincisi isə, uydurulma olsaydı bütün bu insanlar əslində İslam dininə inanan deyil, münafiqlər olardılar. Və ya az sayda insan tərəfindən uydurulan hədislərin əslində uydurulma olduğunu bu elm ilə 12 əsrdir məşğul olan yüz minlərcə digər alim anlamamışdırmı? Və ya anlayıb bunu qəsdən gizlədirlərmi? Təsəvvür edin ki, bir şəxs sizə yer kürəsinin əslində düz olduğunu dövlətindən və yerindən asılı olmayaraq, bunun belə olmadığını bilən hər kəsin bizə yalan deməsini iddia edir. Bu qədər insan yalan üzərində birləşə bilərmi? 12 əsr ərzində hədis elmi ilə iştiğal edən alimlərin sayı milyonlara çatmırsa belə ən azı yüz minləri keçmişdir. Yüz minlərcə adamın və ya hədislərin yalan olduğunu iddia edən bir neçə yüz oriyentalistin yalan üzərində toplanması daha möhtəməl deyilmi? (Nəzərə alın ki, hədis elminin tamamən yalan olduğunu əsasən əvvəlki dövrlərdəki təəssübkeş xristian oriyentaistləri deyiblər. Müasir dövrdə bu cür rəyə sahib olmaq artıq cahillik hesab olunur).

Bunu da qəbul etməyənlərə son sözümüz isə belə olacaqdır. Quran özü kimi ikinci bir kitabın yazıla billinməyəcəyini iddia edir. Quran ortadadır, bu iddianı qəbul etmək istəyən özünü sınaya bilər. Hədis elmi də yüzminlərcə hədisləri, isnadları və raviləri ilə ortadadır. Kim bu elmin yalan olduğunu isbat etmək istəyirsə hədis elmini öyrənsin və elmi şəkildə ona rədd versin. Və ya bu qədər rəvayətin yalan olduğunu iddia edirsə o zaman onun kimi bir yalanı uydursun və belə bir şeyin uydurula biləcəyini isbat etsin. İstənilən tarixi şəxsiyyəti götürsün və onun haqda belə bir yalan uydursun. Bu günə qədər heç bir oriyentalist bunu isbat edə bilməmişdir. Oriyentalistlər sadəcə mətnləri inkar etməklə məşğul olublar. Misal üçün Peyğəmbərin meraca getməsini oxuyublar və mümkünsüzdür deyə inkar ediblər. Eyni zamanda bunlardan bəziləri İsa peyğəmbərin ilah olduğuna inanır. Dövrümüzdəki ateist inkarçılar isə multikainat kimi istənilən absurdun mümkün ola biləcəyi bir dünyaya inanır. Lakin hədis elmini elmi müstəvidə ələ alan oriyentalist görməmişik. Əksinə, elmi şəkildə yanaşanlarından bir çox müasir oriyentalist bu elmin tamamının yalan olmasını şiddətli olaraq inkar edirlər. Bunlardan bir çoxunun adlarını artıq qeyd etmişik.

Hədis elminin uydurulmasının mümkünsüzlüyünü isbat edən bir çox amil vardır. Bunlardan biri də hədisləri rəvayət edən on minlərcə ravi. Yüz minlərə qədər çatan hədis uydurmaq və bu hədislərə yalandan on minlərcə ravinin adını qeyd etmək nə qədər çətin olacağını təsəvvür edirsiz? Sonra hər bir raviyə yalandan bir hal uydurmaq (bəzilərini doğru danışan, bəzilərini isə yalançı və bu ikisinin arasında kateqoriyalara bölmək) və hədisləri də bu ravilərin halına uyğunlaşdırmağın nə qədər çətin olacağını düşünün? Üstəlik bu ravilər sadəcə filankəs ibn filankəslər

deyildir. Bunlar real tarixi şəxsiyyətlərdir. Hədis elmi uydurulmuşdur adındakı bu böyük konspirasiyaya hədisçilərlə bərabər digər müsəlmanları da qatmaq zorunda qalacağıq. Bu ravilərin müxtəlif zamanlarda və müxtəlif coğrafiyalarda yaşadıqlarını da nəzərə alın. Alimlərin hədis elmində təfsilatlara girməsi isə uydurulmamasının başqa bir dəlilidir. Bizim qeyd etdiklərimiz sadəcə aysberqin görünən hissəsidir. Hədis elminin əslində nə qədər dərin olduğunu sadəcə onu müstəqil şəkildə öyrənənlər anlaya bilər. Əgər bu, bir uydurma olsa idi o zaman hər dəfə təfsilatlara girmək sadəcə yalanın üstü açılması ehtimalını çoxaldardı. Az şahidi olan bəsit yalanın üstünün açılması daha az ehtimallıdır. Bunu uyduranlar bunu anlamayacaq qədər ağılsız idilər? O zaman bu ağılsız insanlar tarixdə misli olmayan bir yalanı necə uydurmağa müvəffəq olublar?! Alimlərin müəyyən hədislər haqqında səhih və ya zəif olması barəsində ixtilafı da uydurulmamasına ən bariz dəlillərdəndir.

Dediyimiz kimi, uydurmaq istəyənlər bəsit bir yalan uydararaq istədikləri qədər səhih hədis uydurar və insanlara buna inanın deyərdi. Bu mərhələni keçdiklərini təqdir etsək o zaman bu səhih hədislərlə yanaşı bir qədər də yalan hədis uydurardılar və bunlara inanmayın deyərdilər. Lakin eyni hədis haqqında bəzilərinin bu səhihdir digərlərinin isə bu səhih deyil deməsinin mənası nədir? Üstəlik hədis elmində mütavatir hədislər deyilən bir şey vardır. Onlar elə hədislərdir ki, onu Peyğəmbərdən yalan üzərində birləşmələri mümkün olmayan sayda ravi rəvayət edir. Bundan sonra hər bir ravidən də bu hədisi yalan üzərində birləşmələri mümkün olmayan qədər ravi rəvayət edir. Və beləcə hər bir təbəqədə bu qədər ravinin olması şərtdir. Belə hədislər qəti olaraq Peyğəmbərin dedikləridir. Misal üçün Quran mütavatir olaraq rəvayət olunub. Ona görə də bu gün dünyada

iki müsəlmanın Quran üzərində ixtilaf etməsi mümkün deyildir. Mövcud olan bütün Quran nüsxələri məhv olunsa o zaman nəinki alimlər müsəlmanların həddi buluğa çatmamış uşaqları belə Quranı kamil şəkildə toplaya bilərlər. Bu zaman belə sual yaranır: yalan danışmaq istəyən hədis alimləri nəyə görə bütün səhih kimi göstərmək istədikləri hədislərin mütəvatir olduğunu deməyiblər? Ümid edirik ki, hədis elminin tamamının uydurma ola bilməyəcəyini aydın şəkildə izah etməyə müvəffəq olduq.